qəhrəmanlıq haqqında düşünməməyi əvvəlcədən tələb edir; bu da onun son atributu, son cazibəsidir və bu yolla gənc nəsil ən nəcib keyfiyyətlərindən məhrum olur.

Alicənablıq, müqəddəslik, sədaqət və qəhrəmanlığın yeni anlamı, - məhz bizə lazım olan anlamı - budur. Bunu axmaq anlaşılmazlıq, insan təbiətindəki gizli arzuların təzahürü kimi qəbul etmək lazım deyil. Bununla, ona durğunluğunu qorumağı təklif edirsiz.

Söhbət SSRİ-yə inamdan düşəndə onlar, "Əlli faiz illüziya ilə inanırıq", deyirlər... Sevgilərini, inamlarını başqa necə ifadə edə bilərlər?!

Sanki hər şeyi vətənlə bağlayıb insanları müharibəyə sürükləyərkən bu illüziya ilə alver edən siz olmursuz. Yaxşı da! Məhz bu illüziya hər şeyi arxasınca aparacaq, arzuları həqiqətə çevirəcək.

...Məni hiddətləndirənlərdən biri də: "Fəhlələr də, kəndlilər də qara gündədir", - deyənlərdir. Hətta iddia edirlər ki, onlarla sıx ünsiyyətdə olsaydım, mən də bu fikirdə olardım. Elə fikirləşmirəm. Görünür, zəhmətkeş, məzlum sinfi yəhərləyib çapmaqla öz rifahınızı təmin edirsiz! Onu indiki kimi olmağa siz məcbur etmisiz və təəssüf ki, bunu unudursuz. Məni dəhşətə gətirən də sizin unutqanlığınızdır. Özünüz onu aldatdız, alçaltdız, qara yaxdız, amma indi həyasızlıq edib, "bax gör o nə gündədir!" - deyirsiz. İmkan verin özünə gəlsin, ədəb-ərkan öyrənsin, təhsil alsın, sonra onda eyib axtarın, mənə lazım olan budur. Amma sizin qorxduğunuz da budur. Axı siz gözəl bilirsiz ki, "alçaldılmaq" onun belini büküb. İmkan verin dikəlsin, onu belinə yüklədiklərinizdən qurtarın, onda nəyə qadir olduğunu görərsiz.

Təbii ki, insanlar arasındakı qeyri-bərabərlik daima olacaq. Bunu inkar etmək ağılsızlıq olardı. Amma pul və mənsəb "üstünlüyü"nün gerçək dəyərlərə dəxli yoxdur. SSRİ-də imkanlara, şanslara və iyrənc formulu məhv etməyə yaradılan bərabər şərait məni "heyran" edir: "Öz alnının təri ilə mənim çörəyimi qazanacaqsan!.."

*III*

Deyirsiz ki, sovet rejimi insanlara təzyiq edir, sıxır, onun instinktlərinə qarşı çıxır. Hansı "insandan" danışırsız? Hansı instinktləri nəzərdə tutursuz? Böyüklərdən nümunə götürmək, uşaq yaşlarından başlayaraq təlim-tərbiyə məsələlərinə diqqət yetirmək, daha sonra tamaşalar, kitablar... - insanı yetişdirmək, formalaşdırmaq, onu ictimai həyata hazırlamaq üçün lazım olan hər şey - biz buna biabırçılıq deyirik. Yox, lənət şeytana! Belə insanı dəyişmək mümkün deyil. Gərək insanın təbiətini dəyişəsən. Siz insanı özünü başqalarından üstün tutan, başı daha çox sərvət toplamağa qarışan mülkiyyətçiyə çevirmisiz. Əgər lap uşaq yaşlarından onu sahib olmaq imkanından məhrum etəsydiz, əgər ətrafında sərvət hərisi olan insanları görməsə, bunun ləzzətini dadmasaydı, o zaman hər şeyə fərqli gözlə baxardı. Yeni ruhda tərbiyə alan, yeni quruluşda inkişaf edən sovet uşağının mülkədar düşüncəsi ilə yaşaya biləcəyi ağlasığmazdır. Siz bunu bilirsiz. Uşaqlarınızı həyata hazırlayırsız; bundan asanlıqla qurtulmaq mümkün deyil, həqiqətini qəbul edirsiz. Belə çıxır ki, bütün müşahidələrimiz yalan üzərində qurulub.

İnsanın özünü də iqtisadi sistemlə dəyişmək lazımdır. Bunun başqa yolu yoxdur. Bu səbəbdən də yazdığım kitablara ədalət işığı tutan Massisin 1923-cü ildəki ittihamından gözəl tərif tapa bilmirəm: "Söhbət içində yaşadığımız insandan - bizdən - gedirdi".

*Rus dilindən tərcümə edən:*

**Əyyub QİYAS**

**Ədəbiyyat qəzeti.- 2017- ci il.- 18 fevral.- S. 9.**